# Şəhadət: Ölümsüzlük Məqamı:  Əxlaqi və Fiqhi Araşdırma

**Məhəmməd Əlili**[1]

## Abstrakt

Hər bir millətdə və dində məna baxımından bir-birinə yaxın anlayışlar mövcuddur. Doğruluq, elm, fəlsəfə, qəhrəmanlıq, təhsil kimi sözlər müxtəlif mədəniyyətlərdə ortaq məfhumları ifadə edir. Lakin bu kəlmələrin əzəməti, onlara sahib olan şəxslərin məqamı ilə ölçülür. İslam mədəniyyətində "müqəddəs" anlayışı xüsusi yer tutur. Lüğəvi mənası "toxunulmaz" olan bu söz, İslam dünyagörüşündə dərin məzmun kəsb edir. İslamdan azacıq agah olan hər kəs bu kəlmənin insanı öz əhatəsinə alan bir vəziyyət yaratdığını hiss edər. Həmin kəlmə "şəhid"dir.

Şəhidlik anlayışı bütün millətlərdə müqəddəsliyi və əzəməti ilə seçilir. İnsanların çoxu alim, tələbə, filosof ola bilər, lakin şəhidlik hər kəsə nəsib olan bir məqam deyil. İslam nəzərində düzgün əqidəsi və torpağının müdafiəsi yolunda canını qurban verən insan, insanlığın ən uca pilləsinə yüksəlmiş olur.

**Açar kəlmələr:** şəhid, şəhadət, mənəviyyat, fiqh, Kərbəla, İslam, vətən, əqidə

---

[1] - İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran / Muhammad_nicat@mail.ru

## Giriş

### 1. Şəhadətin Mahiyyəti və Şəhidin Müqəddəsliyinin Mənşəyi

Şəhadət öz müqəddəsliyini haradan alır? Şübhəsiz ki, şəhadət yalnız ölüm faktı ilə müqəddəsləşmir. Çünki çoxlu ölümlər vardır ki, fəxarətə layiq deyillər. İnsan ölümünün növlərini nəzərdən keçirsək, məsələ daha aydınlaşar:

1. **Təbii ölüm** – İnsanın ömür yolunu tamamlayaraq təbii şəkildə dünyasını dəyişməsi. Bu ölüm nə fəxr ediləsi, nə də utanc vericidir; adi bir hadisə kimi qəbul edilir.
2. **Qəza ölümü** – Xəstəlik, yol qəzası, təbii fəlakətlər (zelzələ, sel və s.) nəticəsində baş verən ölüm. Bu cür ölümlər də fəxarət və ya rüsvayçılıq səbəbi deyil, təəssüf doğurur.
3. **Cinayət ölümü** – Bir şəxsin bilərəkdən başqasının həyatına son qoyması. Qurbanın günahsız olduğu hallarda bu ölüm faciəvi olsa da, fəxr ediləsi deyil. Cinayətkar qınanır, ölənin isə bu prosesdə heç bir iradəsi olmamışdır.
4. **İntihar** – Çıxış yolu kimi öz həyatına son qoymaq. İslam bu yolu qəti şəkildə qadağan edir və ən pis ölüm formalarından biri hesab edir. Bilərəkdən qəza şəraiti yaradaraq ölənlər də bu sinfə aiddir.
5. **Şəhadət** – İnsanın öz ilahi və insani dəyərləri, müqəddəs hədəfləri uğrunda canından keçməsi. Şəhadət özlüyündə iki xüsusiyyəti birləşdirir: birincisi, Allah yolunda və müqəddəs hədəf yolunda canını fəda etmək; ikincisi, bu yolda tam agahlıq və iradə sahibi olmaq.

Şübhəsiz, şəhidi öldürənlər cinayət törədirlər. Lakin şəhid üçün bu, müqəddəs hədəf yolunda iradəli seçimdir. Şəhadət, ixtiyar, agahlıq və müqəddəs niyyət üzündən baş verdikdə düzgün, fəxarətli və qəhrəmanlıq nişanəsidir. Ölümlər içərisində yalnız bu ölüm digərlərindən üstündür. Deməli, şəhadətin müqəddəsliyi, insanın öz dəyərləri yolunda tam agah şəkildə fəda olmasından

qaynaqlanır. İnsan Allahdan ölüm diləyə bilməz, ancaq şəhid bu məqama yetişmək arzusunda ola bilər.

**2. Şəhidin Haqqa Qovuşması və Mənəvi Məqamı**

Uca Allah Öz müqəddəs kitabı Qurani-Kərimdə buyurur: *"Allah yolunda öldürülənləri ölü sanma. Əksinə, onlar diridirlər və Rəbbi yanında ruzi verilirlər."* (Ali-İmran, 169)

Bu ayə şəhidlərin həqiqi mənada ölmədiklərini, bəlkə də daha yüksək bir həyat sürdüklərini bəyan edir. İslam ədəbiyyatında bir şəxsin yüksək məqamını vurğulamaq üçün "onun məqamı filan şəhidin məqamı kimidir" ifadəsi işlədilir. Məsələn, cəmiyyətinə xeyirli olmaq məqsədilə elm öyrənmək yolunda ölən şəxs də şəhid hökmündədir. Elm tələb edənə bu adın verilməsi, şəhidlik məqamının nə qədər uca olduğunu göstərir. Həmçinin, ailəsinin təminatı üçün qürbətə gedən və o yolda ölən şəxsə də şəhid deyilir. Əgər iki-üç nəfərdən ibarət ailənin dolanışığı yolunda canını qurban vermək bu qədər dəyərlidirsə, milyonlarla insanın yaşadığı bir ölkənin müdafiəsində şəhid olanın məqamı daha ucadır.

**Şəhidin Haqqı**

Bəşəriyyətə xidmət edən hər bir şəxsin – istər alim, istər sənətkar, istər kəşfiyyatçı – insanlar üzərində haqqı vardır. Lakin heç bir haqq, şəhidin bəşəriyyət üzərindəki haqqı qədər üstün deyil. Çünki bütün digər sahələrdə fəaliyyət göstərənlər, şəhidlərin onlara bəxş etdiyi azadlıq sayəsində işlərini rahatlıqla görürlər. Alim elmi ilə məşğul olmaq, filosof düşüncələrini yaymaq, ixtiraçı kəşflərini həyata keçirmək üçün azad mühitə ehtiyac duyur. Bu azadlığı onlara bəxş edən məhz şəhidlərdir.

Şəhid, şama bənzəyir. Şam ətrafına işıq saçaraq işlərimizi görməyimizə, dərslərimizi oxumağımıza kömək edir, lakin özü yanıb tükənir. Şəhid də eləcə – insanlar rahat və azad yaşasın deyə canından

keçir. Əgər bu işıq olmasaydı, heç bir dəzgah işləyə bilməz, nə elmdə, nə də kəşflərdə irəliləyiş olmazdı.

**Şəhidin Bədəni**

İslam hikmətli bir dindir; onun qanunlarının hər biri müəyyən fəlsəfəyə əsaslanır. Müsəlman dünyasını dəyişdikdə ona qüsl (meyyit qüslü) verilməsi, kəfənlənməsi, meyyit namazı qılınması və dəfn edilməsi vacibdir. Lakin bu qanunun bir istisnası vardır – şəhid. Şəhidə yalnız meyyit namazı qılınır və dəfn edilir. Onu nə yuyarlar, nə də döyüş libası çıxarılır. Bu istisna bir rəmzdir: şəhidin bədəni və ruhu o qədər təmizdir ki, paklıq və gözəllik onun bədəninə, qanına və hətta libasına hopmuşdur.

Şəhidin bədəni şərəfli cəsəddir, çünki şəhadəti onu yuyulmağa ehtiyac qoymur. Şəhidin libası da şərəflidir, çünki onun kəfənə ehtiyacı yoxdur. Dünyanın ən şərəfli libası, şəhid libasıdır. İnsanlar bahalı və dəbdəbəli paltarlar üçün xeyli pul xərcləyirlər, lakin dünyasını dəyişdikdə onların bədənlərində insan sağlamlığına zərər verə biləcək mikroblar olur. Şəhid isə yuyulmadan da təmizdir. Onun qanı suya ehtiyac qoymadan pakdır, hətta sudan üstündür.

**3. Şəhidin Məsuliyyəti və Cihad Anlayışı**

Xristianlıqda yayılmış pasifizm ideologiyası insanı həddindən artıq güzəştə və dözümə çağırır: "Bir sifətinə sillə vursalar, o birini də çevir." Lakin bu təfəkkür insan təbiəti və ağlı ilə tam uyğunlaşmır. İnsanlıq iki əsas prinsip üzərində qurulub: nə haqq kəs, nə də haqqını kəsdirmə. Haqqını kəsənlərə qarşı susmaq, zülmə və haqsızlığa razılıq deməkdir və bu, qiyamət günü onlarla birgə əzaba düçar olmaqla nəticələnəcək. Hər bir insan bacardığı qədər haqsızlığa etirazını bildirməlidir.

Şəhidin döyüşə getməsi, onun ictimai məsuliyyət hissindən qaynaqlanır. İnsan fitrətən haqsızlığa etiraz edən bir varlıqdır və bu yolda canından, malından keçməyə hazırdır. Düşmən uzaqda olsa belə, öz diyarından çıxıb onunla vuruşur. Bu, insanın imanının göstəricisidir və buna cihad deyilir.

**İmam Əli (ə) buyurur:**

"Cənnət qapılarından biri cihad qapısıdır. Allah onu xüsusi dostlarının üzünə açıq qoyub." (Nəhcül-bəlağə, xütbə 27)

Cənnətin səkkiz qapısı vardır. Bu qapılar insanların iman və əməl baxımından fərqli dərəcələrə malik olmasına işarədir. O dünyada təbəqə deyil, dərəcə vardır. İman və əməl artdıqca, dərəcə də yüksəlir. Cihad, Allah qorxusunun libasıdır. İnsan özündən paxıllıq, lovğalıq və digər mənəvi çirkinlikləri uzaqlaşdırmadan Allah qorxusuna nail ola bilməz. Allah qorxusu olmasa, döyüşə qarşı məsuliyyət hissi də olmaz.

## Şəhadətdən İmtina

Bir şəxs üzrlü səbəb olmadan döyüşdən imtina edərsə, Allah ona zillət libası geyindirər, malını yox edər, çətinliklərə düçar edər və onu xar qoyar. Döyüşdən imtina edən millət zəlil olar, gözlənilməz bəlalara düçar olar, ruhi və psixoloji pozğunluqlar yaşayar, qəlbləri daşlaşar. Həzrət Muhəmməd (s) buyurmuşdur: "Xeyir və bərəkət qılıncın kölgəsi altındadır. Allah mənim ümmətimi atların cilovu və nizələrin ucu ilə izzətli etdi."

Veyl deyir: "Heç bir din İslam qədər öz ümmətini qüvvətə və gücə səsləmir." Peyğəmbər (s) buyurmuşdur: "Döyüşməyən və ona əhəmiyyət verməyən, imansız ölər."

Peyğəmbər (s)-dən soruşdular: "Niyə qəbirdə şəhiddən sorğu-sual olunmur?" O buyurdu: "O, artıq imtahanını qılınclar altında verib."

Yəni şəhid öz sədaqətini sübut etdiyi üçün qəbirdə sual-cavaba ehtiyac qalmır. Hətta Allah bir kasıbdan və bir şəhiddən sorğu-sual etməyə utanar.

**Şəhidin Şadlığı**

Döyüşdən öncə döyüşçülərdə müşahidə olunan xüsusi ruh halına "şəhadət sevinci" deyilir. Onlar öz ölümlərinə sevinirlər. İmam Əli (ə) buyurur: "Ömrüm boyu yataqda xəstə yatmaqdansa, yüz qılınc zərbəsi almağı üstün tutaram."

İslam tarixində görürük ki, Peyğəmbər (s) İmam Əlinin (ə) ölümünün nə vaxt və necə olacağını bildirir. İmam Əli (ə) buyurur: "Ya Peyğəmbər, öz dinim və əqidəmdə möhkəm olduğum halda bu yolda öldürülməyimə niyə qəmgin olum?"

Şəhidlər şəhadət ümidi ilə yaşayırlar. Əgər bu ümidi onlardan alsanız, həyatlarında xeyir görməzlər. Onlar dünyaya gələndən "ölmək" deyə-deyə böyüyürlər. Məqsədləri ölüm şərbətini içmək olanları bu yoldan ayırmaq mümkün deyil. Ramazan ayının dualarında belə bir cümlə vardır: "Allahım, mənə Sənin yolunda ölməyi nəsib et."

Şəhidlərin ölümə məhəbbəti, körpə uşağın ana südünə olan məhəbbətindən qat-qat çoxdur. Səhabələr Peyğəmbərin (s) hüzuruna gəlib deyirdilər: "Ey Allahın elçisi, bizim üçün şəhid olmağı dua et." Tarixdə döyüşə birinci atılmaq üçün bir-biri ilə mübahisə edən, hətta püşk atan ata-oğul, qardaş-qardaş çox olmuşdur.

**Şəhid Ata və Oğul**

Hicrətin 3-cü ili (miladi 625) Bədr döyüşü vaxtı ata və oğul hər ikisi döyüşə getmək istəyir. Ata deyir: "Sən cavansan, Peyğəmbərə daha çox lazımsan, mən gedim." Oğul deyir: "Xeyr, ata, sən evə get, yaşlılara döyüş vacib deyil." Püşk atırlar və oğul döyüşə gedib şəhid olur. Bir müddət sonra ata Peyğəmbərin (s)

hüzuruna gəlib şəhid olmaq üçün dua istəyir. Peyğəmbər dua edir və bir il sonra Ühüd döyüşündə ata da şəhid olur.

Başqa bir hadisədə, bir ayağı axsaq olan yaşlı ata oğulları ilə döyüşə getmək istəyir. Oğulları ona döyüşün vacib olmadığını desələr də, qoca israr edir. Peyğəmbər (s) "sənə vacib deyil, amma qadağan da deyil" deyincə, qoca sevinir və axsaq ayağı ilə döyüşür. Oğlu ona kömək etmək istəsə də, qəbul etmir. Nəhayət, özü və bir oğlu həmin döyüşdə şəhid olurlar.

## 4. Şəhidin Məntiqi və Təsiri

Hər kəsin özünəməxsus təfəkkür tərzi vardır. Şəhidin də özünəməxsus məntiqi var. Şəhidin məntiqini adi insanın məntiqi ilə ölçmək mümkün deyil, çünki o, eşq və ilahi sevgi ilə yoğrulmuşdur. İmam Hüseyn (ə) Kərbəlada oğlu Əliəkbərdən ölümü necə gördüyünü soruşduqda, o belə cavab verir: "Bal və şirədən daha şirin!"

Şəhidlərin məntiqi cəmiyyəti cəhalət yuxusundan oyatmaq üçündür. Onların qanı heç vaxt hədər getmir. Peyğəmbər (s) buyurmuşdur: "Allah yanında haqq uğrunda axıdılan qandan daha üstün qan yoxdur."

Şəhadət qanın simvoludur. Şəhidlər öz qanları ilə azadlığa susamış milləti sirab edirlər. Zülm və haqsızlıq tüğyan etdikdə azadlıq qurumuş bir ağaca bənzər; şəhidlər öz qanları ilə o ağacı sulayıb diriləndər və cəmiyyətə təqdim edərlər.

## Şəhid və İbrət Dərsi

Şəhidlər insanlara təkcə azadlıq bəxş etmir, həm də haqsızlığa nifrət, ölümdən qorxmamaq və sona qədər mübarizə ruhunu öyrədirlər. Onların keçdiyi yolda dirilər üçün böyük ibrət dərsləri vardır. Qəlblərində mübarizə hissi olmayan millətlərdə bu hissi oyadan məhz şəhidlərdir. Buna görə də hər bir millət şəhidlərə ehtiyaclı və borcludur.

Şəhid, gecə vaxtı səhrada su axtaran yolçuya bənzəyir. Susuz insan su quyusunu tapanda necə sevinirsə, şəhid də öz hədəfinə çatanda elə sevinir. Ölkəsini azadlığa çıxarmaq fikri ilə yaşayanları heç kim dayandıra bilməz. Şəhid olmaq arzusu qanlarında axırsa, onları fikirlərindən döndərmək mümkünsüzdür.

Hər millətin anım günləri var. Azərbaycan xalqının 20 Yanvar, 26 Fevral, 31 Mart kimi tarixləri şəhidləri anım günləridir. Hindistan xalqının anım günü isə 31 yanvardır. 1946-cı ildə Mahatma Qandi və 32 nəfər tərəfdarı xalqının azadlığı uğrunda həyatlarını fəda etdilər. Qandidən soruşdular: "İngilislərin bu qədər silahı olduğu halda, sənin heç bir silahın yox idi, bu xalqı neçə illik müstəmləkədən necə azad etdin?" Qandi dedi: "Müsəlmanların İmam Hüseyn (ə) adlı liderlərinə baxdım. Gördüm ki, o insan dinini özünün və yaxınlarının canından keçməklə qoruyub saxladı. Anladım ki, azadlığa aparan yol şəhidlikdir."

**Şəhidlik Dastanı**

Bir tacir həmişəki kimi səfərə çıxarkən qəfəsdə saxladığı tutuquşudan soruşur: "Sənə nə gətirim?" Tutuquşu deyir: "Heç nə istəmirəm. Oradakı tutuquşu dostlarıma salamımı çatdır." Tacir alverini bitirdikdən sonra bir çox tutuquşunun olduğu yerdən keçərkən onlara evdəki tutuquşunun salamını çatdırır. Bu sözü eşidən bütün tutuquşlar ölür. Tacı təəccüblənir və peşiman halda geri dönür. Hadisəni qəfəsdəki tutuquşuya danışır. Elə bu an tutuquşu da ölür. Tacı onu qəfəsdən çıxarıb atır. Bir müddət sonra tutuquşunu ağac budağında görüb deyir: "Sən axı ölmüşdün?" Tutuquşu cavab verir: "Oradakı qardaşlarım ölmədilər. Sadəcə mənə azadlığın yolunu göstərdilər. Azadlıq ölümdən keçir. Ölməsən, azad ola bilməzsən."

Bəli, alim öz elmi ilə cəmiyyətə xidmət edir, fərdi şəxsiyyətindən çıxıb cəmiyyətin bir üzvü olur, fikir və düşüncəsi ilə əbədiləşir. İxtiraçı kəşfləri ilə, müəllim təlimi ilə, şair sözü ilə cəmiyyətdə iz

qoyur. Şəhid isə öz qanı ilə cəmiyyətdə əbədiləşir. Onun qanı həmişə cəmiyyətin damarlarında axır. Heç bir sahə mütəxəssisi şəhid qədər cəmiyyətdə əbədi iz buraxmır. Hər əməldən üstün əməl var, lakin şəhidin əməlindən üstün əməl yoxdur.

## 5. Şəhidin Şəfaəti və Şəhidə Ağlamaq

Şəfaət, günahların bağışlanması üçün vasitə olmaq mənasına gəlir. Quran ayələrinə əsasən (Bəqərə, 255; Muddəssir, 46-47; Səbə, 23; Ğafir, 18; Taha, 109) qiyamət günündə bəzi günahkarların bağışlanması üçün Allahın izni ilə peyğəmbərlər, imamlar və şəhidlər şəfaət edə bilərlər. Bu, onların Allah yanındakı yüksək məqamına işarədir. İmam Əli (ə) buyurur:"Allah şəhidləri böyük ehtiramla qiyamətə gətirər. Hətta peyğəmbərlər belə onlara hörmət edərlər."

İnsanın daxilində maddi və mənəvi ehtiyaclar vardır: yatmaq, yemək, gülmək, ağlamaq... Bunlar insan təbiətinin bir parçasıdır. Yaxınını itirən insan istər-istəməz ağlayır. Faciəli şəkildə, milləti yolunda canını qurban verən şəhidə necə ağlamayasan? Hətta Peyğəmbərimiz (s) oğlu İbrahim öləndə ağlamışdı. Şəhidə ağlamaq, onun vida mərasimində iştirak etmək, onun addımına razılıq və şücaətinə hörmət bildirir. İslam bizə şəhidə ağlamağı tövsiyə etmişdir.

Mani adlı peyğəmbərlik iddiaçısı deyirdi: "İntihar düzgün seçimdir. Ölüyə sevinmək lazımdır, çünki ölüm yox olmaqdır." Bu fikir düz deyil. İnsan ölmür, dünyasını dəyişir. Əgər ölüm son olsaydı, torpaq işğal edən, körpələrə, qocalara, qadınlara rəhm etməyən, Qarabağı zəbt edənlərdən intiqam harada alınacaqdı? Həm bu dünyada, həm də o dünyada. Şəhidə ağlamaq onun xatirəsini yaşadır, ona olan məhəbbəti artırır, qatillərə qarşı qəzəbi alovlandırır. Bu, eşqlə ağlamaqdır. Gülmək isə insanı unutqan edər.

## 6. Şəhid, Kərbəla və Müasir Dövr

Kərbəla hadisəsindən sonra bir çox insan İmam Hüseynin (ə) qəbrindən torpaq götürüb təsbeh və ya möhür düzəltdilər. İslam alimləri tövsiyə edirlər ki, torpaq götürmək istədikdə şəhid qəbrinin torpağından götürün, çünki oradan şəhidin ətri gəlir və savabı yüz qat artar. Kərbəla torpağına səcdə etmək, yeddi qat göyü yarmaq kimidir.

Kərbəlanı müqəddəs edən onun özü deyil, orada şəhid olanlardır. Tarixə əsasən orada iki yüz peyğəmbər və onların övladları şəhid olub. Lakin Kərbəlanı zirvəyə qaldıran miladi 682-ci ildə canlarından keçən 72 nəfər şəhid olmuşdur. Şəhidlərimiz bu şəhidlərin həyat tərzindən, şücaətindən dərs alaraq canlarını fəda etdilər. Kərbəla, qəlbində vətən və din sevgisi olanların qeyrət simvoludur.

### Şəhidin Gecəsi

Dünyada müxtəlif peşə sahiblərinin xüsusi günləri qeyd olunur. Şəhidlərin də öz gecələri vardır – anım mərasimləri ərəfəsində keçirilən gecələr. Bu, xalqın şəhidə hörmət və ehtiramının ifadəsidir. Əslində şəhidin haqqı o vaxt ödənir ki, onun yolu davam etdirilsin, yarımçıq qalan işi tamamlansın, qanı yerdə qalmasın.

O gecə şəhidlər qoşun içərisində nur kimi parıldayırdılar. Onları bu parıltıya görə seçmək asan idi. Hər biri təkbaşına Allahla danışır, bir-bir döyüşə atılırdılar. Görəsən şəhid son gecəsində nə deyir? O, Allahdan sağ-salamat qayıtmağı diləməz. Allahla dərdləşəndə özünü çox zəif göstərər, sanki ondan zəifi yoxdur. Döyüşdə isə tamam başqadır. Bu gücü haradan alırlar? Niyə qorxmurlar? Cavab: düzgün əqidə, təmiz niyyət və yalnız Allahdan qorxduqları üçün. Allahdan qorxmayan hər şeydən qorxar, Allahdan qorxan isə heç nədən qorxmaz.

**O gecənin şəhid pıçıltısı:**

*"İlahi, bütün gözəllik və böyüklük Sənə məxsusdur. İlahi, Sən dostlarına qarşı mehriban, düşmənə qarşı qəzəblisən. İlahi, dostlarının duasını qəbul edənsən. İlahi, əgər dostluğuna layiqəmsə, mənə şəhadət nəsib et. İlahi, bura qədər gəlib çıxdımsa, Sənə şükür. İlahi, bu gözəl anı mənə nəsib etdiyin üçün Sənə şükür. İlahi, hamıdan qabaq şəhid olmağı mənə qismət et. İlahi, haqq olaraq qələbə çalsaq, bu sevinci cənnətdə yaşamağı nəsib et. İlahi, məğlub olsaq da, şəhadətimə sevinərəm. Çünki məğlub görünsək də, əslində qalibik. İlahi, mənim ölməyimlə ölkəm düşmən təhlükəsindən qurtaracaqsa, buna şükür. İlahi, bu xeyirli işdə hamımıza kömək ol."*

**Şəhid və Son An**

Şəhidlərin bir-biri ilə son söhbətləri də diqqətəlayiqdir: "Düşmən yalnız torpağımı deyil, məni də istəyir. Mənim varlığım onlara mane olur. Təslim olmağımı istəyirlər, amma təslim olmaram. Məni tikə-tikə etsələr də, fikrimdən dönməyəcəm. Onlar məni təslim alsalar, ölkəmizi böyük fəlakət gözləyir. Onların ən çox qorxduqları şey, bizim hücumumuzdur. Bizi öldürsələr, dünya malı qazanarlar. Amma biz ölsək belə, iki şey qazanırıq: dünyada xalqın rəhməti, axirətdə cənnət və şəhid qardaşlarımızla birlik. Yolumuz haqq olduğu üçün bu yolda məğlubiyyət yoxdur. Cisimcə ölə bilərik, amma əslində ölmürük. Şəhidlər ölməz! Bizim qurmaq istədiyimiz dövlət ölümümüzlə qurulursa, demək qalib gəlmişik. Dünya təəccüb edəcək: 'Necə olur ki, onlar öldülər, amma yaşatmaq istədikləri dövlət yaşayır və qorunur?' Cavabımız budur: bu yol ölüm yolu deyil, şəhadət yoludur. Bu yolda yalnız qələbə var."*

Həzrət Muhəmməd (s) buyurmuşdur: "Vətəni sevmək imandandır." Vətənini sevməyən, onun müdafiəsinə qalxmayan necə iman sahibi ola bilər? İmanı olmayanın Allah yanında dəyəri olmaz.

## 7. İslam Fiqhində Şəhidin Hökmləri (Şiə və Sünni Məzhəblərində Müqayisəli)

### 7.1. Şəhidə Qüsl Verilməsi

Hər iki məzhəbin (şiə və sünni) fiqh alimləri qeyd etmişlər ki, döyüş meydanında şəhid olan şəxsə qüsl verilməz. Bu hökm istər imamın dövründə onun əmri ilə olsun, istər İslam ölkəsinin, istərsə də İslam dininin müdafiəsi uğrunda şəhid olanlara şamil edilir.

**Mənbələr:**

- Cəvahirul-kəlam, c. 4, s. 86 (şiə mənbəyi)
- Əl-Ümm, c. 1, s. 267 (şafei mənbəyi)

Peyğəmbər (s) Ühüd döyüşünün şəhidlərinə və əmisi Həmzəyə qüsl vermədi, əynlərindəki paltarlarla dəfn etdi, lakin meyyit namazı qıldı. Ühüd döyüşündə şəhid olmuş Hənzələyə də qüsl vermədi və buyurdu: "Onu mələklərin qüsl verdiyini görürəm." O gündən Hənzələnin ləqəbi "ğəsilül-məlaikə" (mələklərin qüsl verdiyi) oldu.

İmam Əli (ə) Siffeyn döyüşündə şəhid olan Əmmar ibn Yasir və Haşim ibn Ütbəyə qüsl vermədi, kəfənləmədi, əynlərindəki paltarla dəfn etdi, ancaq namaz qıldı.

**Sünni məzhəbində iki alim – Səid ibn Müsəyyib və Həsən Bəsri – üç dəlilə əsasən şəhidə qüsl verilməsini vacib saymışlar:**

1. İnsandan ruh çıxarkən cünub qüslü vacib olur.
2. Ühüd şəhidlərinə qüsl verilməməsinin səbəbi, qüslün mümkünsüzlüyü və ya suyun olmaması idi.
3. Ömər ibn Xəttab şəhid olanda ona qüsl verildi və kəfənləndi.

**Dəlillərin təhlili:**

1. Hər iki məzhəbin məşhur nəzəri "şəhidə qüsl verilməz" hökmüdür. İki alimin rəyi ümumi məşhur qarşısında qəbul olunmaz.

2. Təbii ölüm ilə şəhadət arasında fərq vardır. Şəhidə Allahın xüsusi dəyər verməsi bu fərqi yaradır.
3. Ümumi rəy (qüsl yoxdur) xüsusi rəyi (qüsl var) təsdiq etmədiyi üçün xüsusi rəy ümumi rəyə qarşı dura bilməz.
4. Ömər ibn Xəttabın döyüş meydanında şəhid olduğuna dair etibarlı mənbə yoxdur.
5. Ühüddə suyun olmadığına dair dəlil yoxdur. Su olmasaydı, təyəmmüm edə bilərdilər, halbuki heç təyəmmüm də etmədilər.

**Nəticə:** Şəhidə qüsl verilməz.

### 7.2. Şəhidə Qüsl Verməmək Vacibdir, Yoxsa Müstəhəb?

Hər iki məzhəbin alimlərinin məşhur nəzərinə görə, şəhidə qüsl verməmək **vacibdir**. Hədislərdə "şəhidə qüsl verməyin" şəklində qadağa vardır və bu qadağanın əksi olmadığı üçün qüsl vermək olmaz. (Üsul elmi qaydalarına əsasən) Şəhidin bədəninə toxunmaqla məssi-meyyit qüslü vacib olmur, çünki o, qüsl verilmiş mövqeyindədir. (Təhrirül-vəsilə, c. 1, s. 63)

### 7.3. Digər Şəhidlik Növləri

Malını, canını, namusunu qoruyarkən ölən, elm tələb edərkən ölən tələbə, ailəsini dolandırmaq yolunda ölən və ya övladını dünyaya gətirərkən vəfat edən ana – bu şəxslərə qüsl verilməlidirmi?

**Şiə alimlərinin ümumi rəyi:** Bu şəxslər şəhid hökmündə deyillər, onlara qüsl verilməlidir, lakin şəhidlik savabını qazanırlar.

**Sünni fiqhində fərqli fikirlər:**

- **Əvzai və Əhməd ibn Hənbəl:** Bu şəxslər də şəhid hökmünə daxildir, qüsl verilməz. (Bidayətül-müctəhid, c. 1, s. 227)
- **Malik, Şafei, Əbu Hənifə:** Şəhid hökmündə deyil, qüsl verilməlidir. (Həmin mənbə)

### 7.4. Şəhidin Kəfəni

**Şiə və hənəfilər:** Şəhid döyüş meydanında vəfat edərsə, ona qüsl yoxdur, kəfənsiz dəfn olunması vacibdir. Yaralı halda döyüş

meydanından kənarda (məsələn, xəstəxanada) vəfat edərsə, kəfənlənməlidir.

**Maliki, şafei və hənbəlilər:** Şəhidin dəfn tərzi onun yaxınlarının ixtiyarındadır; istəsələr kəfənləyər, istəsələr döyüş paltarında dəfn edərlər. Müstəhəb olan əynindəki paltarla dəfn etməkdir. (İmam Şafei, c. 1, s. 267)

**Qeyd:**

- Şəhidin əynində geyim varsa, kəfənsiz və qüslsüz dəfn olunar.
- Şəhid çılpaqdırsa, kəfənlənməlidir.
- Ayaqqabı, papaq, kəmər, əmmamə kimi əşyalarını onunla dəfn etmək olmaz, ancaq qan içində olarsa, dəfn edilə bilər. (Vəsailüş-şiə, c. 2, s. 701)
- Geyim başqasının malıdırsa və sahibi razı deyilsə, çıxarılmalıdır.

**7.5. Şəhidin Namazı**

**Şiələr və hənəfilər:** Şəhidə meyyit namazı qılmaq vacibdir.
**Maliki, şafei, hənbəlilər:** Vacib deyil.

**Etiraz:** Peyğəmbər (s) Ühüd şəhidlərinə, İmam Əli (ə) isə Əmmar ibn Yasir və Haşim ibn Ütbəyə namaz qılmağı tapşırmamışdı. (Bidayətül-müctəhid, c. 1, s. 227; Vəsailüş-şiə, c. 2, s. 699)

**Cavab (Şeyx Tusi):**

1. "Namaz qılmayın" ifadəsi hədisi nəql edənin öz sözü ola bilər.
2. Peyğəmbər özü qılmasa da, başqaları qılmış ola bilər.
3. Bu, müəyyən şəxslərə (məsələn, bütün camaatın yox, yalnız tayfasının) namaz qılmasına işarə ola bilər.
4. Peyğəmbərdən əvvəl kimsə qıldığı üçün təkrar qılmağa ehtiyac qalmamış ola bilər.

Namaz hökmü həddi-buluğa çatmış hər kəsə aiddir (qadınlarda 9, kişilərdə 15 yaş). Əbu Hənifə həddi-buluğa çatmayanlara da qüsl,

kəfən və namazın vacib olduğunu söyləmişsə də, bu məşhur deyil. Bədr və Ühüddə yaşı az olan şəhidlər olmuş və Peyğəmbər onlara namaz qılınmamasını bildirmişdir.

**8. Nəticə: Şəhadət Ölümsüzlükdür**

Şəhid o qədər uca məqama malikdir ki, nəinki şəfaət edər, hətta bədəni çürüməz. İslam rəvayətlərinə görə, bir neçə şəxs vardır ki, öldükdən sonra bədənləri çürüməz. Bunlardan biri də şəhidlərdir.

**Tarixi fakt:** Böyük şiə alimi Şeyx Səduq vəfat edəndən 800 il sonra, Qacarlar dövründə Rey şəhərində sel basqını zamanı qəbirlər təmir edilərkən onun bədəninin çürümədiyi, kəfəninin saralmadığı müşahidə edilmişdir.

**Kərbəla şəhidi Hürr:** Miladi 682-ci ildə Kərbəlada şəhid olan Hürr ibn Yəzid Riyahi. Əsrlər sonra Şah İsmayıl onun qəbrini açdırdıqda bədəninin çürümədiyini, hərbi libasının üstündə olduğunu gördü. İmam Hüseynin (ə) onun alnına bağladığı yaylığı açdıqda qan axmağa başladı. Yaylığı yenidən bağlayanda qan dayandı. Bu hadisədən sonra Şah İsmayıl özünə "Xətai" (səhv edən) ləqəbini götürdü.

**Hədis:** Qırx cümə günü zöhr namazına qədər cümə qüslü alan şəxsin bədəni çürüməz – təbii ki, əməlləri düzgün olmaq şərti ilə.

## Sonda:

Şəhidlik ölüm deyil, əbədi həyata qovuşmaqdır. Şəhidin qanı torpağa tökülmür, millətin qəlbində çiçək açır. Şəhidin ruhu bədəndən azad olub haqqa qovuşur, lakin izi, sözü, mübarizəsi əbədi qalır. Biz şəhidlərə borcluyuq – azadlığımız, dinimiz, vətənimiz onların fədakarlığının bəhrəsidir. Onların yolu işıqdır, biz o işıqda yeriyirik.

Allahım, bizi şəhidlərin şəfaətinə nail et, onların yolu ilə getməyi bizə nəsib et. Amin, ya Rəbbəl-aləmin!

**Ədəbiyyat:**

Qurani-Kərim (Ali-İmran, 169; Bəqərə, 255; Muddəssir, 46-47; Səbə, 23; Ğafir, 18; Taha, 109)

Nəhcül-bəlağə – Şərif Rəzi, İmam Əlinin (ə) xütbə, məktub və kəlamları

Səhifeyi-Səccadiyyə – İmam Səccadın (ə) duaları

Biharül-ənvar – Məhəmməd Baqir Məclisi, 110 clddə şiə hədis məcmuəsi

Vəsailüş-şiə – Şeyx Hurr Amili, şiə fiqhi hədisləri

Üsuli-Kafi – Məhəmməd ibn Yəqub Kuleyni, şiə hədislərinin ən məşhur mənbəyi

Müstədrəkül-Vəsail – Hüseyn Nuri, Vəsailə əlavə hədislər

Cəvahirul-kəlam – Şeyx Məhəmməd Həsən Nəcəfi, şiə fiqhi ensiklopediyası

Təhrirül-vəsilə – İmam Xomeyni, şiə fiqhi hökmləri

Bidayətül-müctəhid – İbn Rüşd, sünni fiqhi müqayisəli

Əl-Ümm – İmam Şafei, şafei məzhəbinin əsas fiqh kitabı

Kifayətül-əxyar – Təqiəddin Həsni, şafei fiqhi

Təfsiri-Nümunə – Ayətullah Nasir Məkarim Şirazi (2018)

Sunəni-ma caə – İbn Məcə, sünni hədis məcmuəsi

Tarixi-Təbəri – Məhəmməd ibn Cərir Təbəri, İslam tarixi

Əl-İrşad – Şeyx Müfid, şiə imamlarının həyatı

Məqatilüt-talibin – Əbül-Fərəc İsfahani, şəhidlərin tarixi

Lühuf – Seyyid ibn Tavus, Kərbəla hadisəsi